Azərbaycan Respublikası elm və təhsil nazirinin 29 aprel 2026-cı il tarixli 3-29/3-2-187F/2026 nömrəli Əmrinə əsasən yaradılmış İşçi qrupunun 13 may 2026-cı il tarixli 01-ci iclasının Protokolu ilə təsdiq edilmişdir.

# “XARİCİ ÖLKƏLƏRDƏ FƏALİYYƏT GÖSTƏRƏN MƏKTƏBLƏRDƏ AZƏRBAYCAN DİLİNİN TƏDRİSİNİN TƏŞKİLİ ÜÇÜN QRANT MÜSABİQƏSİ”NİN

---

## ŞƏRTLƏR TOPLUSU

**2026-cı il**

---

Ünvan: AZ1008, Azərbaycan Respublikası, Bakı şəhəri, Xətai prospekti 49

Elektron poçt: grants@edu.gov.az

# 1. ÜMUMİ MÜDDƏALAR

**1. Hüquqi əsas**

A. Bu sənəd “Qrant haqqında” Azərbaycan Respublikasının Qanunu və Azərbaycan Respublikasının Prezidentinin “Azərbaycan Respublikasının dövlət büdcəsindən maliyyələşdirilən, fəaliyyət sahələrinə uyğun olaraq Azərbaycan Respublikasının hüquqi və fiziki şəxslərinə, habelə bələdiyyələrə qrant verə bilən qurumların siyahısının təsdiq edilməsi haqqında” 2015-ci il 21 oktyabr tarixli 654 nömrəli Fərmanı rəhbər tutulmaqla Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 29 aprel 2026-cı il tarixli 3-29/3-2-187F/2026 nömrəli Əmrinin 2-ci bəndinin icrası ilə əlaqədar hazırlanmışdır və “Xarici ölkələrdə fəaliyyət göstərən məktəblərdə Azərbaycan dilinin tədrisinin təşkili üçün qrant müsabiqəsi”nin (bundan sonra – Qrant müsabiqəsi) keçirilməsi şərtlərini müəyyən edir.

**2. Təşkilati məsələlər**

A. Qrant müsabiqəsinin həyata keçirilməsi elm və təhsil nazirinin əmri ilə yaradılmış İşçi qrupu tərəfindən həyata keçirilir.
B. İşçi qrupunun iclasları onun üzvlərinin ümumi sayının ən azı üçdə ikisi iştirak etdikdə baş tutmuş hesab olunur.
C. İşçi qrupunun iclaslarında qərarlar açıq səsvermə yolu ilə iclasda iştirak edən üzvlərin sadə səs çoxluğu ilə qəbul edilir. Səslər bərabər olduqda İşçi qrupunun sədri həlledici əlavə səs hüququna malikdir.
D. İşçi qrupunun iclaslarının nəticələri iclas protokolunda əks olunur. İclasın protokolu İşçi qrupunun sədri və üzvlər tərəfindən imzalanır.

**3. Qrant müsabiqəsinin məqsədi**

B. Qrant müsabiqəsi Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən aşağıdakı tapşırıqların həyata keçirilməsi üçün layihə təkliflərinin qəbulu üzrə həyata keçirilir:
(a) Qırğız Respublikasının Bişkek şəhərində yerləşən müvafiq məktəbin təhsilalanları üçün bir tədris ili ərzində Azərbaycan dili fənninin əyani tədrisi;
(b) Özbəkistan Respublikasının Daşkənd şəhərində yerləşən müvafiq məktəbin təhsilalanları üçün bir tədris ili ərzində Azərbaycan dili fənninin əyani tədrisi.

| | | |
|---|---|---|
| **4. Qrant müsabiqəsinə təqdim olunacaq layihələr üzrə qısa icmal** | A. | Hər iki tapşırıq üzrə təqdim olunacaq layihə təklifləri Azərbaycan dilinin xarici dil kimi tədrisini nəzərdə tutmaqla təhsilalanların dinləmə, danışma, oxu və yazı bacarıqlarının kompleks inkişafına yönəlməlidir. Layihələrdə tədrisin və istifadə ediləcək resursların planlaşdırılması, tədris prosesinin təşkili, təhsilalanların nailiyyətlərinin ölçülməsi və təhlili ilə bağlı fəaliyyətlər nəzərdə tutulmalıdır. Əməkhaqqı istisna olmaqla (əməkhaqqının xarici ölkənin aidiyyəti qurumu tərəfindən qarşılanması nəzərdə tutulur) layihənin icrası ilə bağlı bütün zəruri xərclər, o cümlədən beynəlxalq nəqliyyat (ekonom sinfi) və sığorta xərcləri, gündəlik yaşayış (mənzil kirayəsi, yemək, şəhərdaxili nəqliyyat, rabitə, kommunal xərclər və s.) və digər xərclər layihənin büdcəsində nəzərdə tutulmalıdır. Qeyd olunan xərclər “Ezamiyyə xərclərinin normaları haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 25 yanvar 2008-ci il tarixli 14 nömrəli Qərarına əsasən qeyd edilən ölkə və şəhərlər üzrə 1 (bir) gün üçün təyin edilmiş normaları aşmamalıdır. Layihənin büdcəsində ailə üzvlərinin xərcləri nəzərdə tutulmamalıdır. |
| **5. İstifadə olunan dil** | A. | Qrant müsabiqəsinin gedişatı zamanı tələb olunan bütün sənədlər və yazışmalar Azərbaycan dilində aparılır. |

## 2. İŞTİRAKÇILAR ÜÇÜN TƏLİMAT

**2. Qrant müsabiqəsində iştirak tələbləri**

A. Qrant müsabiqəsində iştirak tələbləri aşağıdakılardır:

(a) İştirakçının ümumi təhsil müəssisələrində Azərbaycan dilinin tədrisi üzrə ən azı 3 (üç) il pedaqoji staja malik olması (bu tələbin ödənilməsinin müəyyən edilməsi üçün əmək kitabçasının elektron surətinin təqdim olunması (PDF));

(b) İştirakçının yaşının 60-dan çox olmaması (bu tələbin ödənilməsinin müəyyən edilməsi üçün şəxsiyyət vəsiqəsinin elektron surətinin təqdim olunması (PDF));

(c) İştirakçı tərəfindən Şərtlər toplusunun 3-cü bölməsinə uyğun hazırlanmış və imzalanmış layihə təklifinin təqdim olunması (PDF);

(d) İştirakçı tərəfindən Şərtlər toplusunun 4-cü bölməsinə uyğun olaraq hazırlanmış və imzalanmış "Xaricdə fəaliyyət göstərmək üçün işdən ayrılma mexanizmi yaxud işsizlik barədə bəyanat"ın təqdim olunması (PDF);

(e) Hər tapşırıq üzrə qrant müsabiqəsinə eyni iştirakçı tərəfindən yalnız bir layihə təqdim edilə bilər.

**3. Qrant müsabiqəsinə sənəd qəbulu**

A. Qrant müsabiqəsinə təqdim olunacaq sənədlərin qəbulu 03 iyun 2026-cı il, saat 17:00-dək grants@edu.gov.az elektron poçtu vasitəsi ilə həyata keçiriləcəkdir.

B. Qrant müsabiqəsinə təqdim olunmuş bütün müraciətlər qeydə alınır və bu barədə 3 (üç) iş günü ərzində iştirakçıya grants@edu.gov.az elektron poçtu vasitəsi ilə məlumat verilir.

C. Müraciətin alındığına dair 3 (üç) iş günü ərzində elektron məktub alınmadığı təqdirdə iştirakçı tərəfindən (+994 51) 201 29 71 nömrəsi ilə əlaqə saxlanılması tövsiyə olunur.

| | | |
|---|---|---|
| **4. Qrant müsabiqəsinə müraciət müddəti və müraciətin geri götürülməsi** | A. | İştirakçılar tərəfindən qrant müsabiqəsinə sənədlərin təqdim olunması müsabiqənin keçirilməsi haqqında elanda müəyyən olunmuş müddətdə baş tutmalıdır. Müraciət üçün nəzərdə tutulan son tarixdən sonra edilən müraciətlərə baxılmır (əgər digər qurumlardan tələb olunan sənədlərin alınmasında gecikmə olarsa, həmin quruma müvafiq arayışların əldə edilməsi ilə bağlı ünvanlanmış rəsmi müraciət məktubu əlavə edilməlidir. Bu cür sənədlər elanda müraciət üçün nəzərdə tutulan son tarixdən ən geci 5 (beş) iş günü sonrakı müddətədək təqdim olunmalıdır). |
| **5. Layihə təklifinin hazırlanması** | A. | İştirakçı layihə təklifini Şərtlər toplusunun 3-cü bölməsindəki tələblər əsasında hazırlayaraq təqdim edir. Təklifə onu müşayiət edən bütün təsdiqedici sənədlər əlavə edilməlidir. |
| **6. Qrant müsabiqəsinə edilmiş müraciətlərin yoxlanılması, qiymətləndirilməsi, qalibin müəyyənləşdirilməsi və müqavilənin bağlanılması** | A. | İlk olaraq iştirakçıların qrant müsabiqəsinin iştirak tələblərinə uyğunluğu Şərtlər toplusunun 5.1.A. bölməsində göstərilən qaydada İşçi qrupu tərəfindən qiymətləndirilir. |
| | B. | İştirak tələblərini tam ödəyən iştirakçıların layihələri 50 (əlli) ballıq şkala ilə Şərtlər toplusunun 5.2.A. bölməsində göstərilən qaydada İşçi qrupu tərəfindən qiymətləndirilir. |
| | C. | Layihə qiymətləndirməsində keçid balını (keçid balı 30 (otuz) baldır) toplamış bütün iştirakçılar müsahibəyə dəvət olunur. |
| | D. | Müsahibə zamanı iştirakçılar İşçi qrupu tərəfindən 50 (əlli) ballıq şkala ilə Şərtlər toplusunun 5.3.A. bölməsində göstərilən qaydada qiymətləndirilir. |
| | E. | Müsahibədə keçid balını (keçid balı 30 (otuz) baldır) toplamış bütün iştirakçıların layihə qiymətləndirməsi və müsahibə zamanı topladıqları ballar cəmlənir və hər tapşırıq üzrə ən yüksək bal toplamış bir iştirakçı qalib hesab olunur. |
| | F. | Eyni iştirakçı hər iki tapşırıq üzrə ən yüksək bal topladığı təqdirdə, iştirakçıya onlardan birini seçmək təklif olunur. İştirakçı tərəfindən seçilməyən tapşırıq üzrə ən yüksək bal toplamış növbəti iştirakçı qalib hesab olunur. |
| | G. | Qalib iştirakçı ilə qrant müqaviləsinin bağlanıla bilməsi üçün həmin iştirakçı layihədə iştirak etməsinə imkan verən sağlamlıq vəziyyətinə malik olmalı və eyni zamanda vergi ödəyicisi olmalıdır. |

Bu tələblərin təsdiqi kimi iştirakçının sağlamlıq vəziyyətini təsdiq edən tibbi arayışın elektron surəti, VÖEN və ona bağlı bank rekvizitləri Elm və Təhsil Nazirliyinə təqdim olunmalıdır.

H. Bağlanılmış qrant müqaviləsi “Qrant müqavilələrinin (qərarlarının) qeydə alınması Qaydası”na uyğun olaraq müvafiq qaydada qeydə alındıqdan və layihənin icra olunacağı ölkənin aidiyyəti qurumu ilə razılaşdırıldıqdan sonra maliyyələşdirilir.

## 7. Şikayət verilməsi

A. İştirakçılar Qrant müsabiqəsinin nəticələri ilə bağlı inzibati qaydada və məhkəməyə şikayət verə bilərlər.

## 3. LAYİHƏ TƏKLİFİ FORMASI

**1. Layihənin adı**

A. Layihənin adı kimi aşağıdakı tapşırıqlardan birini daxil edin:

(a) ☐ Qırğız Respublikasının Bişkek şəhərində yerləşən müvafiq məktəbin təhsilalanları üçün bir tədris ili ərzində Azərbaycan dili fənninin əyani tədrisi

(b) ☐ Özbəkistan Respublikasının Daşkənd şəhərində yerləşən müvafiq məktəbin təhsilalanları üçün bir tədris ili ərzində Azərbaycan dili fənninin əyani tədrisi

**2. Layihənin məqsədi**

A. Layihənin məqsədini daxil edin.

**3. Layihənin əsaslandırılması**

A. Layihənin icrası üçün təqdim etdiyiniz yanaşmaları əsaslandırın.

**4. Fəaliyyət planı[1]**

A. Layihə çərçivəsində həyata keçiriləcək fəaliyyətləri zamanlama ardıcıllığı ilə aşağıdakı cədvələ daxil edin:

| № | Fəaliyyət | Hər fəaliyyət üzrə görüləcək işlərin təsviri | İcra müddəti | | | | | | | | | Nəticə indikatoru |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | 1-ci ay | 2-ci ay | 3-cü ay | 4-cü ay | 5-ci ay | 6-cı ay | 7-ci ay | 8-ci ay | 9-cu ay | |
| **1.** | **Layihənin icrasına hazırlıq mərhələsi** | | ☐ | ☐ | ☐ | ☐ | ☐ | ☐ | ☐ | ☐ | ☐ | |
| 1.1. | | | ☐ | ☐ | ☐ | ☐ | ☐ | ☐ | ☐ | ☐ | ☐ | |
| 1.2. | | | ☐ | ☐ | ☐ | ☐ | ☐ | ☐ | ☐ | ☐ | ☐ | |
| 1... | | | ☐ | ☐ | ☐ | ☐ | ☐ | ☐ | ☐ | ☐ | ☐ | |
| **2.** | **Tədris mərhələsi** | | ☐ | ☐ | ☐ | ☐ | ☐ | ☐ | ☐ | ☐ | ☐ | |
| 2.1. | | | ☐ | ☐ | ☐ | ☐ | ☐ | ☐ | ☐ | ☐ | ☐ | |
| 2.2. | | | ☐ | ☐ | ☐ | ☐ | ☐ | ☐ | ☐ | ☐ | ☐ | |
| 2... | | | ☐ | ☐ | ☐ | ☐ | ☐ | ☐ | ☐ | ☐ | ☐ | |
| **3.** | **Layihənin yekunlaşdırılması və hesabatvermə mərhələsi** | | ☐ | ☐ | ☐ | ☐ | ☐ | ☐ | ☐ | ☐ | ☐ | |
| 3.1. | | | ☐ | ☐ | ☐ | ☐ | ☐ | ☐ | ☐ | ☐ | ☐ | |
| 3.2. | | | ☐ | ☐ | ☐ | ☐ | ☐ | ☐ | ☐ | ☐ | ☐ | |
| 3... | | | ☐ | ☐ | ☐ | ☐ | ☐ | ☐ | ☐ | ☐ | ☐ | |

[1] Fəaliyyət planına alt fəaliyyətlər və hər alt fəaliyyət üzrə görüləcək işlər daxil edilməli, hansı fəaliyyətə nə qədər zaman ayrılacağı götərilməli və hər fəaliyyət üzrə ölçülə bilən nəticə indikatorları daxil edilməlidir. Fəaliyyət planına Azərbaycan dili fənninin tədris edilməsi üçün uyğunlaşdırılmış tədris proqramının hazırlanması, təhlükəsiz və davamlı yaşayış yerinin tapılması və rezervasiyanın edilməsi, beynəlxalq nəqliyyat üçün biletin və sığortanın alınması, səfərin və tədrisin edilməsi təşkili, layihə nəticələrinin təhlili və Donor üçün yarımillik və yekun hesabatın hazırlanması alt fəaliyyətlırinin daxil edilməsi tövsiyə olunur.

**5. Layihənin büdcəsi**[2]

A. Layihə çərçivəsində həyata keçiriləcək xərcləri aşağıdakı cədvələ daxil edin:

| № | Xərclərin təsviri[3] | Vahidin adı | Vahidin miqdarı | Vahidin qiyməti | Cəmi məbləğ | Xərcləri təsdiq edən sənədlər |
|---|---|---|---|---|---|---|
| 1 | Beynəlxalq nəqliyyat (ekonom sinfi) və sığorta (o cümlədən icbari sığorta) xərcləri | gediş-gəliş | | __AZN | __AZN | Bilet və sığorta haqqının ödənilməsini təsdiq edən sənəd, minik kartları |
| 2 | Gündəlik yaşayış xərcləri (mənzil kirayəsi, yemək, şəhərdaxili nəqliyyat, rabitə və digər xərclər) | gün | | __AZN | __AZN | Xarici pasportdakı ölkəyə giriş-çıxış möhürləri |
| 3 | Tədris materialları və resurslar | | | __AZN | __AZN | Ödəniş qəbzi |
| 4 | Digər zəruri xərclər | | | __AZN | __AZN | Ödəniş qəbzi |
| | | | | | **LAYİHƏ ÜZRƏ YEKUN BÜDCƏ:** | **__AZN** |

**6. Layihənin icrasına Donor dəstəyi**

A. Layihə üzrə fəaliyyətə başlanılması üçün Donor (eləcə də onun strukturuna daxil olan və daxil olmayan tabeliyindəki qurumlar) tərəfindən həll edilməli məsələləri daxil edin:

(a) ☒ Layihənin xaricdə icrası dövründə müvafiq yaşayış icazəsi və digər hüquqi məsələlərin həllində dəstəyin göstərilməsi

(b) ☒ Xarici ölkənin müvafiq dövlət qurumları ilə layihə və onun icraçısı ilə bağlı müvafiq məlumat mübadiləsinin aparılması, müvafiq razılaşdırmaların əldə edilməsi və texniki məsələlərin dəqiqləşdirilməsinə dəstəyin göstərilməsi

(c) ☐ Digər (özünüz ətraflı daxil edin)

**7. Layihəni təqdim edən şəxsin əsas rekvizitləri**

A. Öz adınızı, soyadınızı və ata adınızı daxil edin.

B. Hazırda işlədiyiniz müəssisənin (varsa) adını və həmin müəssisədəki vəzifənizi daxil edin.

C. İmzanızı daxil edin.

---

[2] Qırğız Respublikası tərəfindən yalnız məhdud həcmdə əmək haqqı istisna olmaqla müəllimin yaşayış və nəqliyyat xərclərinin qarşılanması nəzərdə tutulmadığından, bu tapşırıq üzrə layihə təqdim edildiyi təqdirdə layihə üzrə bütün xərclər daxil edilməlidir.

[3] Layihənin büdcəsində ailə üzvlərinin xərcləri nəzərdə tutulmamalıdır.

## 4. LAYİHƏ İŞTİRAKÇISININ XARİCDƏ FƏALİYYƏT GÖSTƏRMƏK ÜÇÜN İŞDƏN AYRILMA MEXANİZMİ YAXUD İŞSİZLİK BARƏDƏ BƏYANATI

---

**1. Layihəni təklif edən şəxsin bəyanatı**

A. Layihə iştirakçısının xaricdə fəaliyyət göstərmək üçün işdən ayrılma mexanizmi yaxud işsizlik barədə bəyanatını doldurun və imzalayın.

### LAYİHƏ İŞTİRAKÇISININ XARİCDƏ FƏALİYYƏT GÖSTƏRMƏK ÜÇÜN İŞDƏN AYRILMA MEXANİZMİ YAXUD İŞSİZLİK BARƏDƏ BƏYANATI

Mən

______________________________________________________________________________

(ad, soyad, ata adı)

bəyan edirəm ki, təqdim etdiyim layihə qrant qazanarsa, layihəni bir tədris ili ərzində icra etmək üçün

______________________________________________________________________________

(seçilən tapşırığa uyğun olaraq ölkə və şəhərin adı)

şəhərinə getməyə razıyam.

Özümlə bağlı bildirirəm ki:

☐ Hazırda işləmirəm.

☐ Hazırda işləyirəm. Layihəm qrant qazandığı təqdirdə, onu icra etmək üçün 2026–2027-ci illərdə ödənişsiz məzuniyyət hüququmdan istifadə etməklə bağlı işəgötürənə müraciət edəcəyəm (Bu bənd seçildiyi halda, iş yerinin rəhbəri tərəfindən verilmiş razılıq məktubu əlavə edilməlidir).

☐ Hazırda işləyirəm. Layihəm qrant qazandığı təqdirdə, onu icra etmək üçün öz təşəbbüsümlə əmək müqaviləmə xitam verilməsi üçün işəgötürənə müraciət edəcəyəm.

Şəxsin işlədiyi müəssisənin adı və həmin müəssisədəki vəzifəsi:

Şəxsin adı, soyadı və imzası:

Tarix:

## 5. QİYMƏTLƏNDİRMƏ MEYARLARI

---

**1. Qrant müsabiqəsinin iştirakçılarının uyğunluq sənədlərinin qiymətləndirilməsi**

A. Qrant müsabiqəsinin iştirakçılarının uyğunluq sənədləri aşağıdakı meyarlar əsasında qiymətləndirilir:

| № | İştirak tələbi | İştirak sənədi | Qiymətləndirmə |
|---|---|---|---|
| 1. | İştirakçının ümumi təhsil müəssisələrində Azərbaycan dilinin tədrisi üzrə ən azı 3 (üç) il pedaqoji staja malik olması | Əmək kitabçasının elektron surəti (PDF) | Uyğundur/Uyğun deyil |
| 2. | İştirakçının yaşının 60-dan çox olmaması | Şəxsiyyət vəsiqəsinin elektron surəti (PDF) | Uyğundur/Uyğun deyil |
| 3. | İştirakçının layihə təklifini təqdim etmiş olması (PDF); | Layihə təklifi (PDF) | Uyğundur/Uyğun deyil |
| 4. | İştirakçının “Xaricdə fəaliyyət göstərmək üçün işdən ayrılma mexanizmi yaxud işsizlik barədə bəyanatı”nı təqdim etmiş olması | Xaricdə fəaliyyət göstərmək üçün işdən ayrılma mexanizmi yaxud işsizlik barədə bəyanatı (PDF) | Uyğundur/Uyğun deyil |
| | | **NƏTİCƏ:** | Uyğundur/Uyğun deyil |

**2. Layihə təkliflərinin qiymətləndirilməsi**

A. İştirak tələblərini tam ödəyən iştirakçıların layihə təklifləri aşağıdakı meyarlar əsasında qiymətləndirilir:

| № | Meyar | Qiymətləndirmə |
|---|---|---|
| 1. | **Tədris metodologiyası**<br>(Təklif olunan tədris strategiyalarının, tədris resurslarının və tədris planının keyfiyyəti, innovativliyi, səmərəliliyi və şagirdyönümlülüyü) | 0-20 bal |
| 2. | **Layihənin fəaliyyət planı**<br>(Fəaliyyət planının aydınlığı, məntiqi ardıcıllığı və müddətlərin real planlaşdırılması) | 0-20 bal |
| 3. | **Layihənin büdcəsi**<br>(Layihənin xərclər smetasının texniki qüsursuzluğu, layihə çərçivəsində həyata keçiriləcək fəaliyyətlərə və bazar qiymətlərinə uyğunluğu) | 0-10 bal |
| | **CƏMİ BAL:** | **0-50 bal** |

**3. Müsahibənin keçirilməsi**

A. Layihə təklifləri keçid balını toplamış iştirakçılar müsahibə zamanı 50 (əlli) ballıq şkala ilə aşağıdakı meyarlar əsasında qiymətləndirilir:

| № | Meyar | Qiymətləndirmə |
|---|---|---|
| 1. | **Əsas səriştələr**<br>(Layihənin icra olunacağı ölkənin dövlət dilində, yaxud rus və ya ingilis dillərində ünsiyyət bacarıqları, beynəlxalq təcrübəsi, İKT və süni intellektdən istifadə bacarıqları, özünü təqdimetmə və ünsiyyət bacarığı) | 0-20 bal |
| 2. | **Pedaqoji təcrübə**<br>(Pedaqoji prosesi təşkiletmə və təhsilalanları qiymətləndirmə bacarığı, pedaqoji fəaliyyətin innovativliyi və zənginliyi, elmi adları, müəllif işləri, təhsil sahəsində iştirak etdiyi təlimlər və əldə etdiyi digər nailiyyətlər) | 0-20 bal |
| 3. | **Layihə üzərində sahiblik**<br>(Tapşırığı anlama səviyyəsi və layihəni təqdimetmə bacarığı) | 0-10 bal |
| | **CƏMİ BAL:** | **0-50 bal** |